AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
## RESPUBLİKA MƏRHƏLƏSİ
## YARIMFİNAL TUR

**11.03.2017**

# TARİX
# 11-ci SİNİF

**1. Məntiqi ardıcıllığı müəyyən edin:**
Ömər Eldarov- Tokay Məmmədov-?
A) Cəlal Qaryağdı
B) Tahir Salahov
C) Mikayıl Abdullayev
D) Lətif Kərimov
E) Səttar Bəhlulzadə

**2. Uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. R. Təhmasib | a. “Uzaq sahillərdə” |
| 2. H. Seyidzadə | b. “Arşın mal alan” |
| 3. T. Tağızadə | c. “O olmasın, bu olsun” |
| | d. “Gülüstan” |

A) 1-a, 2-c, 3-d B) 1-c, 2-d, 3-b
C) 1-a, 2-b, 3-c D) 1-d, 2-a, 3- b
E) 1-b, 2-c, 3-a

**3. Cənubi Azərbaycanda 1941-1946 - cı illər milli-demokratik hərəkatı zamanı mövcud olmuş milli hökumətə aid deyil:**
A) Əhməd Qəvamla danışıqlar aparması
B) S. C. Pişəvərinin başçılıq etməsi
C) 10 Nazirlikdən ibarət olması
D) Ümumi seçkilər yolu ilə Azərbaycan Milli Məclisinin çağırılması
E) 1946- cı ilin dekabrında devrilməsi

**4. XX əsrin 40-cı illərinə dair xronoloji ardıcıllığı müəyyən edin:**
1. ADF-nin yaradılması haqqında bəyanatın verilməsi
2. ADF-nin orqanı olan Azərbaycan qəzetinin nəşrinə başlanması
3. ADF-nin Mərkəzi Komitəsinin seçilməsi
4. Azərbaycan Xalq Konqresinin çağırılması
5. “Azərbaycan” cəmiyyətinin yaradılması

A) 5,4,1,2,3 B) 1,3,2,5,4
C) 1,3,5,4,2 D) 4,5,1,2,3
E) 5,1,2,3,4

**5. Abdulla Qaliyev və Şeyx Mənsurun başçılıq etdiyi üsyanların oxşar cəhətləri:**
1. Dağlı xalqlarının azadlıq mübarizəsi olması
2. Rusiyanın müstəmləkə zülmünə qarşı olması
3. XVIII əsrdə baş verməsi
4. Müridizm bayrağı altında çıxış etmələri

A) 1,3 B) 2,3 C) 2,4 D) 1,4 E) 3,4

**6. Şah I Abbasın əmri ilə Naxçıvan əhalisi köçürülmüşdü:**
A) Qarabağa B) Şirvana C) Tehrana
D) Xorasana E) Abbasabada

**7. AXC hökumətinin fəaliyyətinə aid deyil:**
A) İrəvanın Ermənistana güzəştə gedilməsi
B) Kinematoqrafiyanın inkişafına xüsusi diqqət yetirməsi
C) Daşnaq Ermənistanına qarşı sülhməramlı siyasət yürütməsi
D) Dağlı Respublikası ilə müqavilə imzalaması
E) Vergi sistemini formalaşdırmaq üçün tədbirlərin həyata keçirilməsi

**8. Uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. İsmayıl Əliyev | a. Smolensk |
| 2. Mirzəxan Məmmədov | b. İtaliya |
| 3. Ələkbər Əliyev | c. Fransa |
| 4. Məmməd Əliyev | d. Krım |
| | e. Belorusiya |
| | f. Polşa |

A) 1-d; 2-c; 3-f; 4-a, b
B) 1-a; 2-b; 3-c; 4-d
C) 1-a; 2-f; 3-e; 4-d
D) 1-e; 2-b,c; 3-f; 4-a
E) 1-f; 2-a; 3-d; 4-e

**9. 1554-cü ildə Buğurd yaxınlığında baş vermiş döyüşün nəticəsi:**
A) Krım türklərinin qoşunu qalib gəldi
B) Səfəvilər məğlub oldu
C) Üsyançılar məğlub edildi
D) Abdulla xan Ustaclının qoşunu qalib gəldi
E) Osmanlı qoşunu məğlub edildi

**10. 1572-1573-cü illər üsyanı zamanı Təbrizə təyin olunmuş yeni hakim:**
A) Qulu bəy Əfşar
B) Rüstəm xan Təkəli
C) Hacı Qəssab
D) Yusif bəy Ustaclı
E) İmamqulu xan Qacar

**11. 1724-cü il İstanbul müqaviləsinə aiddir:**
A) Arazdan cənubdakı ərazilərin Səfəvilərə qaytarılması
B) Rusiyanın Kürdən şimaldakı ərazilərə qoşun yerləşdirməməsinin qeyd olunması
C) Kürdən cənubdakı Xəzəryanı bölgələrin Səfəvilərə qaytarılması
D) Gürcüstanın Osmanlı dövlətinə mənsub olmasının təsdiqlənməsi
E) Səfəvilərlə Osmanlılar arasında imzalanması

**12. Nadir şah Əfşara aiddir:**
A) Şahbağı döyüşündə üsyançıları məğlub etməsi
B) Muğan qurultayının çağırılması
C) Kirmanşah müqaviləsinin imzalanması
D) Bağdad döyüşündə qalib gəlməsi
E) Ölkənin dörd əyalətə bölünməsi

**13. Qeyd edilənlərdən neçəsi XIX əsrin II yarısında Azərbaycana aid deyil:**
1. Əsrin sonlarında Azərbaycana kənardan narın duz gətirilməsi Abşerondakı duz istehsalına mənfi təsir etmişdi
2. Şəhər əsasnaməsinə əsasən, fəhlə, qulluqçu, ziyalı və qadınlar seçkilərdə iştirak edə bilməzdilər
3. Bakı şəhər Dumasının fəaliyyətinin əsaslarından birini də vergi və rüsumların toplanması təşkil edirdi
4. Bakıda ilk elektrik stansiyası “Elektrosila” cəmiyyətinə məxsus idi
5. İri feodallar və ruhanilər taxıl möhtəkirliyi ilə məşğul olurdu
A) 4 B) 3 C) 1
D) 2 E) 5

**14. XIX əsrin II yarısında Azərbaycana aid deyil:**
1. Kənd təsərrüfatı istehsalı kənd əhalisinin ehtiyaclarını lazımi səviyyədə ödəmədiyindən kəndlilər arasında sənət və peşələrə meyil daha da güclənmişdi
2. Əsrin sonlarında daxili təsərrüfatın təşkili sisteminin təkmilləşməsi burada ənənəvi forma olan bazar ticarətinin əhəmiyyətini xeyli azaltmışdı
3. Ticarətin yarmarka forması Bakıda təşkil edilsə də, Nuxa və digər şəhərlərdə də fəaliyyət göstərirdi
4. Ticarətin ən mütərəqqi forması olan birja Rusiyada ilk dəfə olaraq məhz Bakıda yaradılmışdı
5. Kapitalizmin inkişafı nəticəsində şəhərlərdə ixtisaslaşma baş verirdi
A) 2,4 B) 1,2 C) 1,3,5
D) 1,2,4 E) 3,4,5

**15. XVIII əsrdə yaşayıb-yaratmış məşhur türk bəstəkarı:**

A) Nedim
B) Mehmet Ağa
C) Ömər bəy İtri
D) İshak Paşa
E) Əbdülqadir Marağayi

**16. Sagit Xalfinin fəaliyyətinə aiddir:**

A) İlk tatar əlifbasını tərtib etmişdir
B) Çuvaş əlifbasını tərtib etmişdir
C) Gürcüstanda ilk mətbəənin yaradıcısı olmuşdur
D) İlk Osmanlı mətbəəsinin təşəbbüsçüsü olmuşdur
E) Buxarada qızlar üçün xüsusi məktəb açmışdır

**17. Sultan Məhəmməd və Levninin fəaliyyətinə aid oxşar cəhət:**

A) Musiqiyə dair əsər yazmaları
B) XIV əsr hökmdarı olmaları
C) İslahatçı hökmdar kimi tanınmaları
D) Miniatür rəssamlığının nümayəndələri olmaları
E) Coğrafiyaşünas olmaları

**18. Karlovitsa sülhünə görə Osmanlı imperiyasının itirdiyi ərazilərdən deyil:**

A) Dalmasiya
B) Moreya və Transilvaniya
C) Macarıstan və Xorvatiya
D) Podolya və Sağsahil Ukrayna
E) Şimali Serbiya və Belqrad

**19.Birinci dünya müharibəsi dövründə İngiltərə və Fransa arasında imzalanmış sazişdə nəzərdə tutulurdu:**

A) Müharibədən sonra Millətlər Cəmiyyətinin yaradılması
B) Almaniya ərazisinin işğal zonalarına bölünməsi
C) Osmanlı imperiyasına daxil olan ərəb ərazilərinin bölüşdürülməsi
D) Müstəmləkələrə mandat sisteminin tətbiq edilməsi
E) Almaniyadan təzminatın alınması

**20. 1918-ci ildə Krım türklərinin milli-azadlıq mübarizəsinə başlanmasına şərait yaratdı:**

A) Osmanlı dövlətinin Krıma ordu göndərməsi
B) Azərbaycan və Gürcüstanın özünü müstəqil elan etməsi
C) Volqaboyu , Ural və Sibirdə sovet rejiminin devrilməsi
D) Bolşeviklərin Rusiyada dövlət çevrilişi etməsi
E) Zaqafqaziya Seyminin yaradılması

**21. İran dövlətinin XIX əsrin I yarısına aid xüsusiyyətlər:**

1. Xaricilərə konsessiyalar verilməsi prosesinin güclənməsi
2. Cənubi Qafqaz uğrunda mübarizədə Rusiyaya məğlub olması
3. Ölkəyə xarici kapital axının artması
4. Ölkənin sosial – iqtisadi həyatında ruhanilərin mühüm rol oynaması
5. Mirzə Tağı xanın islahatlarının uğursuzluqla nəticələnməsi

A) 1,2,3
B) 1,3,5
C) 3,4,5
D) 1,2,4
E) 2,3,4

**22. ABŞ-da quldarlıq tərəfdarlarının siyasi ağalığına son qoydu:**
A) "Azadlıq haqqında bəyannamə"nin elan edilməsi
B) Vətəndaş müharibəsinin başa çatması
C) Respublikaçılar partiyasının prezident seçkilərində qələbə qazanması
D) Zəncilərin vətəndaşlıq hüquqları haqqında qanunun qəbul edilməsi
E) İkinci istiqlaliyyət müharibəsinin qələbə ilə başa çatması

**23. Uyğunluğu müəyyən edin:**
1. Varron a. "Kənd təsərrüfatı haqqında"
2. Vitruvi b. "Latın dili haqqında"
3. Vergili c. "Memarlıq haqqında"
d. "Cisimlərin təbiəti haqqında"
e. "Eneida"

A) 1-d; 2-b,c; 3-a
B) 1-e; 2-b; 3-c
C) 1-b; 2-c; 3-a
D) 1-a,b; 2-c; 3-e
E) 1-c; 2-e; 3-a,d

**24.** *1. Dərbəndi liman şəhəri kimi təsvir edir,*
*2.Dərbəndin Ərdəbildən daha böyük şəhər olduğunu qeyd edir.*
**Qeyd edilənlərin aid olduğu səyyah:**
A) Əl-İstəhri
B) Əl-Müqəddəsi
C) İbn Havqəl
D) Əl- Məsudi
E) Əbu Duləf

**25. Uyğunluğu müəyyən edin:**
1. Əl-İstəhri 2. İbn Havqəl
3. Əl-Müqəddəsi 4. Əl- Məsudi
a) Bakını Şirvan məmləkətinin neft çıxan torpağı kimi qiymətləndirir
b) Təbrizin Bağdadla müqayisədə üstün olduğunu qeyd edir.
c) Azərbaycanın ən böyük şəhəri Ərdəbildir.
d) Tiflisi Arran şəhərləri sırasına daxil edir.
e) Urmiya şəhərinin iqlimi saf və təmizdir.

A) 1-a; 2-b,c,d; 3-e; 4-c
B) 1-e; 2-b; 3-c; 4-d
C) 1-a,b; 2-c; 3-d; 4-e
D) 1-d,e; 2-c,d; 3-b; 4-a
E) 1-c; 2-e; 3-a,d; 4-b

**26. Xuan Çao üsyanı zamanı Çini idarə edən imperator:**

A) Lin Yan
B) Van Syançji
C) İç Jou
D) Yan Quan
E) Sitzun

**27. Aşağıda qeyd edilənlərin hansı mənbəyə aid olduğunu müəyyən edin:**
*- Qul, at və ya qoşqu heyvanı oğurlayandan 30 solid cərimə alınmalıdır.*
*- Taxıl anbarını yandırandan 63 solid cərimə alınmalıdır.*
*- Öküz oğurlayan 35 solid cərimə ödəməlidir.*

A) Hammurapi qanunları
B) Frank qanunları toplusu
C) Monqolların "Böyük Yasa"sı
D) Yustinian qanunları
E) Napoleon məcəlləsi

**28. 1830-cu ildə Azərbaycan feodallarının müsadirə edilmiş əmlakı özlərinə qaytarıldı:**

A) Ordu sıralarında qulluq etmələri şərti ilə
B) Yerli üsyanların yatırılmasına kömək göstərmələri şərti ilə
C) Ərazinin idarəçiliyində iştirak etməmələri şərti ilə
D) Torpaqlarının bir hissəsini kəndlilərə vermələri şərti ilə
E) Kəndliləri təhkimçilikdən azad etmələri şərti ilə

**29. Uyğunluq pozulmuşdur:**

A) Mir Mehdi Həşimzadə - "Kitabi-tarixi Qarabağ"
B) Mirzə Kazım bəy – "Bab və babilər"
C) Mirzə Əhməd – "Əxbərnamə"
D) Həsənəlixan Qaradaği – "Şükürnameyi – şahənşahi"
E) Mirzə Adıgözəl bəy – "Qarabağnamə"

**30. Xəritə-sxemdə Əl-Əlameyn döyüşündə iştirak edən dövlətləri müəyyən edin:**




A) 1,2,4 B) 2,3,4,6 C) 1,4,5
D) 1,2 E) 1,3,4,6